Bülleten No: 09 / sentyabr 2013

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi
Məlumat Hesablama Mərkəzi

Elektron Hökumət Portalı
your gateway to all public services

www.e-gov.az

SENTYABR 2013

# Elektron Hökumət Bülleteni



## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə



VAXTA QƏNAƏT



ŞƏFFAF



ƏLVERİŞLİ



RAHAT



SYSTEM CERTIFICATION ISO 9001 SGS

UKAS ENVIRONMENTAL MANAGEMENT 005

# İlk biometrik pasport İlham Əliyevə təqdim edildi



**Sentyabrın 2-də Azərbaycan Respublikası vətəndaşının ilk biometrik pasportunun Prezident İlham Əliyevə təqdim edilməsi mərasimi olub.**

Son illər ölkəmizdə sürətli iqtisadi inkişaf proseslərinin həyata keçirilməsi, xalqın rifah halının daha da yaxşılaşdırılması, sosial infrastruktur layihələrinin uğurla icra olunması, dövlət orqanlarında işlərin operativ həlli və bu sahədə bürokratik əngəllərin aradan qaldırılması istiqamətində ardıcıl işlər görülür.

Bakıda və regionlarda Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN xidmət" mərkəzlərinin fəaliyyətə başlaması, dövlət idarələrində digər müasir xidmət növlərinin yaradılması olduqca əhəmiyyətlidir. Azərbaycanda, eyni zamanda, vətəndaşlara müasir texniki xidmətin ən yüksək dünya standartları səviyyəsində göstərilməsi sahəsində də məqsədyönlü tədbirlər görülür. Azərbaycan Respublikası vətəndaşının ilk biometrik pasportunun hazırlanması da bu istiqamətdə atılan mühüm addımlardan biridir. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının biometrik eyniləşdirmə sisteminin yaradılması üzrə 2007-2012-ci illər üçün Dövlət Proqramı"nın, həmçinin "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi barədə" 2012-ci il 17 iyul tarixli 686 nömrəli Fərmanın tələblərinin vaxtında təmin edilməsi məqsədilə bir sıra təxirəsalınmaz tədbirlər həyata keçirilib. Şəxsiyyəti təsdiq edən sənədlərin verilməsini tənzimləyən normativ hüquqi baza təkmilləşdirilib, ümumvətəndaş, xidməti və diplomatik pasportların təsviri, spesifikasiyası və nümunələri Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 17 iyul tarixli 687 nömrəli Fərmanı ilə təsdiq edilib. Şəxsiyyəti təsdiq edən yeni nəsil biometrik sənədlərin tətbiqi məqsədilə İqtisadi İnkişaf Nazirliyi tərəfindən aidiyyəti dövlət orqanlarının mütəxəssislərindən ibarət İşçi Qrupu yaradılıb, bu sahədə beynəlxalq səviyyədə tanınmış şirkətlərin təcrübəsi və əldə olunan nailiyyətlər öyrənilib, pasportların təsviri və spesifikasiyası hazırlanıb. Ümumvətəndaş pasportlarının hazırlanması və verilməsi məqsədilə 9 regional mərkəz yaradılıb. Bu mərkəzlərdə xidmət üçün ən yüksək şərait var.

Beləliklə, sentyabrın 2-dən ölkəmizdə yeni nəsil biometrik pasportların verilməsinə başlanıldı. Vətəndaşlar ödədikləri dövlət rüsumunun məbləğindən asılı olaraq on, beş və bir iş günü ərzində ümumvətəndaş pasportları ilə təmin oluna biləcəklər.

# Bu il "Bakutel" şərgisi çərçivəsində bir sıra beynəlxalq konfranslar keçiriləcək

**"İteca Caspian" şirkəti 2013-cü ilin payız sərgi mövsümünü açıq elan edib.**

Payız sərgi mövsümü çərçivəsində 2-5 dekabr tarixində "Bakutel 2013" 19-cu Azərbaycan Beynəlxalq "Telekommunikasiya və İnformasiya Texnologiyaları" sərgisi ilə başa çatacaq. Azərbaycan Respublikası Prezidenti zali-aliləri İlham Əliyevin Sərəncamı ilə 2013-cü il Azərbaycanda "İnformasiya və kommunikasiya texnologiyaları ili" elan edilib və bu kontekstdə bu keçirilən "Bakutel 2013" sərgisi Azərbaycanın İKT sektorunda əldə etdiyi nailiyyətlərin nümayişi üçün unikal meydançaya olacaqdır.

Sərgi ekspozisiyası Azərbaycanda İT texnoparkının yaradılması mövzusuna da toxunacaq. Ənənəvi olaraq, sərgidə aparıcı İKT şirkətləri, mobil rabitə və kommunikasiya operatorları, habelə internet provayderləri iştirak edəcəklər.

Sərgiyə həmçinin Belarus, Çin, Malayziya, Rusiya, Sloveniya, ABŞ, Ukrayna, Yaponiya və digər ölkələrdən olan şirkətlər də qatılacaqlar. Builki sərginin fərqli cəhəti milli stendlərin say etibarı ilə daha çox olmasıdır.

Sərgini geniş işgüzar proqram müşayiət edəcək. Belə ki, sərgi çərçivəsində kibertəhlükəsizlik mövzusunda konfrans və Dünya azərbaycanlılarının I virtual konfransı, habelə Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) və AMEA İnformasiya Texnologiyaları İnstitutunun təşkilati dəstəyi ilə "Azərbaycanda internet: dünən, bu gün və sabah" mövzusunda beynəlxalq elmi-praktik konfrans, "TASİM" konsorsiumuna daxil olan əsas telekommunikasiya operatorlarının illik forumu, "İnternet regional inkişaf və təşviqatın lokomotivi kimi" mövzusunda internet idarəçiliyi üzrə Azərbaycan Respublikasının birinci beynəlxalq forumu, Azərbaycan Respublikasında dövlət və özəl İKT sektorları arasında əməkdaşlıq üzrə mütəxəssislər mərkəzinin yaradılması ilə əlaqədar tədbir, o cümlədən Asiya və Sakit okean regionu üzrə iqtisadi və sosial komissiyanın "Biliklərə əsaslanan iqtisadi inkişaf üzrə "SPECA" layihəsinin (BMT-nin Mərkəzi Asiya üzrə xüsusi iqtisadiyyat proqramı) işçi qrupu"nun iclası və Azərbaycan-Argentina və Azərbaycan-ABŞ İKT forumları keçiriləcək.

www.e-gov.az

# "Elektron hökumət": mövcud vəziyyət, problemlər, perspektiv və gözləntilər" məqalə müsabiqəsinin 1-ci mərhələsinin qalibləri elan edilib

***Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin "İKT ili" çərçivəsində "Respublikada "Elektron hökumət": mövcud vəziyyət, problemlər, perspektiv və gözləntilər" mövzusunda elan etdiyi analitik məqalə müsabiqəsinin 1-ci mərhələsi başa çatıb. Aşağıdakı müəlliflər 1-ci turun qalibləri olublar:***




**Aydın Hüseynov.** "Azərbaycanda E-hökumət xidmətlərinin monitorinq sisteminin yaradılmasının mümkün istiqamətləri".

**Fuad Əlizadə.** "E-правительство" - новый этап развития страны

**Zülfiyyə Quliyeva.** "Elektron hökumət"dən kənarda qalanlar…

**Aynurə Əhmədova.** "Elektronlaşa bilməyən vətəndaşlar, yoxsa hökumət strukturları?"

**Zahir Hətəmov.** "Dövrün tələbi - elektron idarəetmə"

**Ramin İlyasov.** "Yeni idarəetmə erası- Elektron Hökumət"

**Ruhiyyə Hüseynova.** "Eökumətin "b" variantı; Nazirliklər niyə ləngiyir? – Araşdırma

**Xəyalə Məmmədova.** E-Dünya təcrübəsi əsasında yeni "Elektron-Azərbaycan" modelinin tətbiqi yollarının əsas inkişaf istiqamətləri

**Elnur Hacalıyev.** "Elektron Hökumət: çevik və səmərəli idarəçiliyin uğurlu formulu".

**Gülnar Quliyeva.** "Elektron Hökumət"in Azərbaycan modeli"

**Tacirə Mahmudova.** "İKT-Dəyişən və dəyişdirən amil"

**Müsabiqənin 2-ci mərhələsinə start verilmişdir.**

***2-ci mərhələyə təqdim ediləcək məqalə aşağıdakı qeyd olunan məsələlərin hər birini əhatə etməlidir:***

- Sahə üzrə qanunvericiliyin analizi və təkliflər;
- Dövlət informasiya ehtiyatları və fərdi məlumatlar informasiya sistemləri ilə tanışlıq, təhlil və təkliflər. Hansı informasiya sistemlərini görmək istərdilər?
- Portal üzərindən xidmət göstərməyən qurumlar: səbəblərin araşdırılması;
- Beynəlxalq təcrübə və müqayisə;
- "2013- 2015-ci illərdə dövlət orqanılarında elektron xidmətlərin genişləndirilməsi və "Elektron hökumət"in inkişafına dair Dövlət Proqramı"nın layihəsinin təkliflər;
- Sosial tələblərdən irəli gələrək yeni elektron xidmətlərin yaradılması;
- Portalın yeni funksionallıqları;
- Elektron xidmətlərin təbliği, təşviqi, tədrisi və miqyaslanması.
- Kadr hazırlığı .

Məqalələr 16 sentyabra qədər elektron imza ilə təsdiq olunmuş formada Təşkilat Komitəsinə göndərilməlidir. Bu tarixdən sonra təqdim olunan məqalələr qəbul olunmayacaq. Məqalələr təqdim olunduqdan sonra 10 gün ərzində KİV-də dərc olunmalıdır. KİV-də dərc olunmayan məqalələr müsabiqədə iştirak etməyəcək.

# Mərkəzi Seçki Komissiyası "Elektron hökumət" portalına qoşulub

Mərkəzi Seçki Komissiyasının altı xidməti "Elektron hökumət" portalına (www.e-gov.az) inteqrasiya edilib. Bu xidmətlərə "Ad, soyad və ata adı üzrə dairə və məntəqələrin axtarışı", "Dairə və məntəqə ünvanlarının axtarışı", "Dairə və məntəqələrin xəritə üzrə axtarışı","Onlayn müraciət", "Seçici siyahısı üçün məlumatların daxil edilməsi", "Seçici ünvanına görə dairə və məntəqənin axtarışı" daxildir. MSK-nın sözügedən elektron xidmətlərini seçdikdə hər bir portal istifadəçisi tələb olunan məlumatları daxil etməklə ad, soyad, və ata adı üzrə dairə və məntəqələrin, dairə və məntəqələrin ünvanlarının, seçici ünvanına görə dairə və məntəqənin , dairə və məntəqələrin xəritə üzrə axtarışlarını və seçici siyahısı üçün məlumatları əldə etməklə yanaşı, həmçinin onlayn müraciətlərini göndərə bilər.

Xidmətlərdən istifadə üçün linkə https://www.e-gov.az/e-services/?i=unregistered daxil olun və müvafiq xidməti seçin.



# Əfqanıstan nümayəndə heyəti İKT sahəsində əməkdaşlığın genişləndirilməsi məqsədilə Azərbaycana səfər etmişdir

**Azərbaycanın "e-hökumət" sahəsində qazandığı uğur bir çox inkişaf etməkdə olan ölkələrin diqqətini cəlb edir. Əfqanıstan hökuməti də Azərbaycanın bu sahədəki uğurunu örnək hesab edərək BMT İP-nin hər iki ölkədəki nümayəndəliklərinin vasitəçiliyi ilə Azərbaycanın Əfqanıstana bu sahədə yardım etməsinə ciddi maraq göstərir.**

Əfqanıstan İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri cənab Əmirzay Sanginin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycan hökuməti və BMT İP-nin birgə təşkil etdiyi 9-15 iyun 2013-cü il tarixlərindəki səfəri bu istiqamətdə atılmış ən mühüm addımlardan biridir. Bu səfərin nəticəsi olaraq, Azərbaycan və Əfqanıstan respublikalarının Rabitə və İnformasiya Texnologiyaları Nazirlikləri, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Beynəlxalq İnkişafa Yardım Agentliyi (AİDA) və BMT İP-nin hər iki ölkə üzrə nümayəndəliklərinin əməkdaşlarından ibarət İşçi Qrupu yaradılıb.

Əfqanıstan Respublikası rabitə və informasiya texnologiyaları nazirinin müavini Barialay Hassamın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan və Əfqanıstan arasında İKT sahəsində əməkdaşlığa dair İşçi Qrupun birinci görüşündə iştirak etmək üçün Azərbaycanda səfərdədir.

29 avqust - 2 sentyabr tarixində keçiriləcək İşçi Qrupun görüşünün məqsədi Əfqanıstanın İKT sahəsindəki inkişafında Azərbaycanın iştirak imkanlarını, Əfqanıstanın İKT sahəsində mövcud tələbatlarını, bu sahədə əsas istiqamətlərin müəyyən edilməsini və Əfqanıstanda həyata keçirilə biləcək layihələri müzakirə etməkdir.

Səfər çərçivəsində əfqan nümayəndə heyətinin



Azərbaycan Respublikası rabitə və informasiya texnologiyaları nazirinin müavini Elmir Vəlizadə, AİDA Agentliyinin direktoru Əşrəf Şıxəliyev və BMT İP-nin Azərbaycan nümayəndəliyinin Rezident nümayəndəsinin müavini Nato Alhazişvili ilə görüşləri keçirilib. 30 avqust tarixində "Əfqanıstanda elektron hökumətin qurulması" layihəsi çərçivəsində RİTN-də Azərbaycan-Əfqanıstan İşçi Qrupunun ilk görüşü keçirilib.

Görüşdə iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi üzrə müzakirələr aparılıb, Əfqanıstanın İKT sahəsində mövcud ehtiyacları araşdırılıb, gələcəkdə həyata keçiriləcək tədbirlər müəyyənləşdirilib və birgə görüş protokolu imzalanıb.

Qeyd edək ki, 2012-ci ildə AİDA BMT İP vasitəsilə Əfqanıstanın inkişafına yardım üçün 150 000 ABŞ dolları məbləğində vəsait ayırıb. Bu təşəbbüs Azərbaycanın regional və qlobal problemlərin həllində fəal iştirakçılıq öhdəliyini bir daha göstərir. Bu əməkdaşlıq Əfqanıstanın stabilliyi və iqtisadi inkişafında Azərbaycanın mühüm rol oynamasına şərait yaradır.

# Ümumdünya İqtisadi Forumunun reytinqində Azərbaycan İKT göstəriciləri xeyli yüksəlib

**Ümumdünya İqtisadi Forumunun hesabatında Azərbaycanın informasiya-kommunikasiya texnologiyaları (İKT) üzrə göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşıb. Belə ki, Qlobal Rəqabətqabiliyyətlilik İndeksi üzrə Azərbaycan dünyanın 148 ölkəsi arasında 39-cu yeri tutub. Keçən ilin reytinqi ilə müqayisədə Azərbaycan (144 ölkə arasında) 46-cı yerdəki mövqeyindən 7 pillə irəliləyərək MDB məkanında öz liderliyini yenə də qoruyub.**

"ICTnews" xəbər xidmətinin məlumatına əsasən, ölkədə mobil genişzolaqlı internet istifadəçilərinin sayı 54,8% artıb. Hazırda Azərbaycanda hər 100 nəfərə 33,3 genişzolaqlı mobil internet istifadəçisi düşür və bu göstərici üzrə ölkəmiz 148 ölkə arasında 50-ci yeri tutub.

Ölkədə hər internet istifadəçisinin payına 40,1 kbit/s internet trafiki düşür ki, bu da Azərbaycanın müvafiq reytinqdə 61-ci yerdən 45-ci yerə irəliləməsinə səbəb olub.

Fərdi internet istifadəçilərinin sayına görə ölkəmiz ötən illə müqayisədə mövqeyini 8,4% yaxşılaşdıraraq 59-cu yerdə qərarlaşıb.

Azərbaycanda əhalinin hər 100 nəfərinə 107,5 mobil telefon düşür və bu göstərici üzrə ölkəmiz 78-ci yeri tutub.



Stasionar rabitə sahəsində Azərbaycanın göstəriciləri ötən illə müqayisədə 1,6% yüksəlib. Bu göstərici üzrə ölkəmiz 67-ci mövqedədir. Hazırda hər 100 nəfərdən 18,4% stasionar rabitə istifadəçisidir.

Genişzolaqlı internet xidmətləri istifadəçilərinin sayına görə isə Azərbaycan 47-ci yerdə qərarlaşıb, bu da ötən ilin müvafiq göstəricisindən 7 pillə yüksəkdir.

www.e-gov.az



# RİTN sağlamlıq imkanları məhdud vətəndaşlar üçün aksiyaya başlayıb

**"Elektron hökumət" portalına inteqrasiya edilən xidmətlərin sayı, eyni zamanda xidmətlərin keyfiyyətcə yeni mərhələyə keçidi ilə bağlı vətəndaş və sahibkarlıq fəaliyyəti ilə məşğul olanların məlumatlanma səviyyəsi yüksəldikcə, bu xidmətlərə maraq və onların verdiyi üstünlüklərdən yararlanmaq istəyi portala olan müraciətləri də dinamik şəkildə artırmaqdadır.**

Elektron xidmətlərdən istifadədə bərabərlik prinsipini əsas götürən Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzi (MHM) portala müraciət edənlər arasında sağlamlıq imkanları məhdud, fiziki qüsurlu insanların çoxluğunu da nəzərə alaraq, sosial yönümlü yeni aksiyaya başlamaq qərarı verib. Aksiya hələlik Bakı şəhərini əhatə edəcək.

Belə ki, əlilliyi olan insanların ictimai həyatın bütün sahələrində iştirak etməsi üçün bərabər imkanlara malik olması, onların öz fərdi əmək qabiliyyətlərinə və maraqlarına uyğun dolğun həyat sürməsi məqsədi ilə elektron xidmətlərdən istifadə edə bilmələri, portal üzərindən aidiyyəti hökumət orqanları ilə onlayn əlaqə yarada bilmələri üçün onlara zəruri şəraitin yaradılması və minimum biliklərin verilməsi cəmiyyətimizin xüsusi diqqət mərkəzində olmalı və bu şəxslər daim qayğı ilə əhatə edilməlidirlər.

Məlum olduğu kimi, "Elektron hökumət" portalından istifadə zamanı təqdim edilən daxilolma vasitələrinin (sadələşdirilmiş kod parol, elektron imza və s.) əldə edilməsi üçün vətəndaşın sosial sığorta kartı, sürücülük vəsiqəsi və ya ümumvətəndaşlıq pasportunun olması şərtdir və ya vətəndaş müvafiq qeydiyyat məntəqələrinə gedərək fiziki surətdə identifikasiya olunmalıdır. Lakin əksər hallarda əlil vətəndaşlarımızın heç də hamısı bu sənədlərə malik deyillər və qeydiyyat məntəqələrinə getmək onlar üçün əlçatan deyil.

Beləliklə, "Elektron hökumət" portalının verdiyi imkanlardan bərabər hüquqla yararlanma imkanlarının yaradılması üçün MHM tərəfindən xüsusi qeydiyyat bölməsi yaradılır. Evində kompüteri və ya mobil planşeti, eyni zamanda internetə çıxışı olan, kompüterlə işləmə bacarıqlarına malik və ya yardımçısı olan əlil vətəndaşlarımız şəxsiyyət vəsiqəsində yer alan məlumatları səhih olaraq müraciət formasında doldurmalıdırlar.

Bundan sonra "Elektron hökumət" portalı vətəndaşın həqiqətən əlil olduğunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin informasiya bazasından dəqiqləşdirəcək. Dəqiqləşmədən sonra vətəndaşlarımızla əlaqə saxlayan "Elektron hökumət" portalının əməkdaşları uyğun vaxt ərzində evlərə gedərək, vətəndaşları identifikasiya etməklə, onlara portala daxil olmaq üçün sadələşdirilmiş kod-parol və ya mobil İD təqdim edəcəklər.

Eyni zamanda həmin şəxslərə portaldan istifadə qaydaları barədə yerindəcə zəruri biliklər veriləcək.

# Azərbaycanda səhiyyə sahəsinə dair yeni elektron xidmətlər istifadəyə verilib



**"Elektron hökumət" portalına inteqrasiya olunan elektron xidmətlərin sayı sürətlə artır. "ICTnews" elektron xəbər xidmətinin məlumatına görə, Səhiyyə Nazirliyinin daha 5 elektron xidməti portala daxil edilib.**

Portal vasitəsilə istifadəyə verilən yeni xidmətlərə "Radioaktiv maddə və materialların, ionlaşdırıcı şüa mənbələri olan qurğuların, avadanlıqların və radioaktiv tullantıların daşınması üsullarının və şəraitinin sanitariya qaydalarına uyğun olması barədə sanitar-epidemioloji rəyin verilməsi", "Tikinti və yenidənqurma layihələrinə sanitar-epidemioloji rəyin verilməsi üçün müraciətin və sənədlərin qəbulu" "Rentgen kabinetinin istismarına icazə verən sanitar-epidemioloji rəyin verilməsi", "İonlaşdırıcı şüa mənbələri ilə işlərə icazə verən sanitar-epidemioloji rəyin verilməsi" və "Tikinti üçün torpaq sahəsinin sanitariya normalarına və qaydalarına və gigiyena normativlərinə uyğunluğuna dair rəyin verilməsi" e-xidmətləri daxildir.

# Diasporla İş üzrə Dövlət Komitəsi "Elektron hökumət" portalına qoşulub

**Komitənin "Xaricdə yaşayan Azərbaycanlıların elektron müraciəti" xidməti portal vasitəsilə istifadəyə verilib.**

Bu xidmət xarici ölkələrdə yaşayan Azərbaycan Respublikası vətəndaşlarının, eləcə də Azərbaycan Respublikasının vətəndaşı olmayan azərbaycanlıların hüquq və azadlıqlarının pozulması halları, habelə diaspor təşkilatları tərəfindən Azərbaycan həqiqətlərinin təbliği, milli-mədəni irsimizin tanıdılması, diaspor quruculuğu ilə bağlı hazırlanmış layihələrin Dövlət Komitəsinə təqdim edilməsi üçün birbaşa elektron müraciət imkanını əhatə edir.

Qeyd edək ki, interaktiv növlü elektron xidmət ödənişsiz həyata keçirilir. Xidmətin icra müddəti 15 gün təşkil edir. E-xidmətin digər icraçısı Xarici İşlər Nazirliyidir.

# İnformasiya Texnologiyaları Universitetinə keçid balı 610 olub



**Bu il ali məktəblərə qəbul olunmaq istəyənlər arasında yeni yaradılan İnformasiya Texnologiyaları Universitetinə (İTU) böyük maraq olub.**

Bu barədə "ICTnews" elektron xəbər xidmətinə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının mətbuat xidmətinin rəhbəri Elnur Nağızadə məlumat verib. O bildirib ki, İTU üçün dövlət tərəfindən ayrılan 60 yer uğrunda abituriyentlər arasında rəqabətli konkurs şəraiti yaranıb.

Abituriyentlərin İTU-ya minimum 610 keçid balı ilə daxil olduqlarını vurğulayan E.Nağızadənin sözlərinə görə, I qrupa imtahan verənlərin, demək olar ki, hər birinin arzusu İTU-da oxumaq olub:

"İnformasiya Texnologiyaları Universitetinə daxil olmaq üçün keçid balının minimum 610 olması, ali təhsil ocağına olan böyük marağın əsas göstəricisi kimi dəyərləndirilə bilər. Mən hesab edirəm ki, İTU-nun yeni yaranması, insanlar tərəfindən burada təhsilin yüksək keyfiyyətli qurulacağına inamın olması və eləcə də həm Azərbaycanda, həm də bütün dünya üzrə İKT sahəsinin günü-gündən inkişafı yeni universitetə marağı artıran amillərdəndir".

# Azərbaycanda "IMEI" kodlar elektron imza vasitəsilə qeydiyyata alınacaqlar

**Azərbaycan Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi bu ilin sentyabr ayından etibarən "IMEI" (International Mobile Equipment Identification - Mobil cihazların qeydiyyat sistemi) kodları yeni üsulla qeydiyyatını həyata keçirəcək.**

Hazırda nazirliyin müvafiq strukturları tərəfindən bu istiqamətdə tamamlama işləri aparılır.

"Bu üsulun yeniliyi ondan ibarət olacaq ki, artıq "IMEI" kodu qeydiyyatdan keçirmək üçün mütləq elektron imzanın istifadəsi tələb olunacaq", - deyə nazirliyin tənzimləmə şöbəsində bildiriblər.

Xatırladaq ki, "IMEI" kodlarının qeydiyyat sistemi 2013-cü il mayın 1-dən etibarən istifadəyə verilib.

Azərbaycanda təsdiq edilmiş qaydalar uyğun olaraq şəxsi istifadə məqsədi ilə ölkə ərazisinə gətirilərək istifadə olunan (ölkə mobil operatorlarının SİM kartları vasitəsilə) hər bir mobil cihazın "IMEI" nömrəsi həmin cihazın şəbəkədən xidmət almağa başladığı tarixdən ən geci 30 (otuz) gün müddətində qeydiyyata alınmalıdır.

Bu qayda Azərbaycana gələn xarici qonaqlar, turistlər tərəfindən xarici ölkə operatorunun SİM kartı ilə rouminq xidmətindən istifadə edilən cihazlara şamil olunmur. Yəni onlar xarici ölkə operatorlarının SİM kartları ilə işləyən cihazlardan maneəsiz olaraq istifadə edə bilərlər. "IMEI" kodu öyrənmək üçün mobil cihaz istifadəçilərinə *#06# qısa nömrəsini yığmaq və ya "www.imei.az" internet səhifəsində mövcud olan interaktiv xidmətdən istifadə etmək kifayətdir.

Mobil cihazların "IMEI" nömrələri ilə cihazların orijinallığını müəyyənləşdirmək, eləcə də əlavə məlumatlar əldə etmək mümkündür.

Qeydiyyatı əksər hallarda mobil qurğu satıcıları və mobil qurğuların idxalı ilə məşğul olan hüquqi statusundan asılı olmayaraq digər sahibkarlar həyata keçirirlər. Mobil qurğunun qeydiyyatı olmadıqda və o, qara siyahıya aid olduqda mobil operator 24 saat ərzində onun istismarını çətinləşdirməlidir. "IMEI" kodların qara zənbilindən olan qurğularına xidmət göstərən vəzifəli şəxslər 2 min manat, hüquqi şəxslər isə 10 min manat cərimə ediləcəklər. Bu cür hallar təkrar aşkar edildiyi halda cərimələrin məbləği müvafiq olaraq 4 min və 20 min manatadək artır.

Mobil qurğunun "IMEI" kodunun qeydiyyat sisteminə qoşulmadığı və qurğunun sistemə uyğunlaşdırılmadığı halda vəzifəli şəxslər 5 min manat, hüquqi şəxslər isə 25 min manat cərimə ediləcəklər.

Qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilən mobil qurğular, mobil rabitə operatorlarının fəaliyyətinə mənfi təsir göstərir, istifadəçilərin səhhətinə ziyan vurur və mobil qurğuların "IMEI" kodlarının qeydiyyat sisteminin tətbiqi bunların qarşısını almaq üçün ən effektiv tədbirlərdən biridir.




www.e-gov.az

# Gömrük Komitəsinin sədri: "Azərbaycan "elektron hökumət"in tətbiqinə böyük önəm verir"




**Artıq dünyada elə bir vahid dövlətik ki, xüsusi aparatlarla bütün sərhədlər təchiz olunub.Orda elektron variantla da vətəndaşlar müraciət edə bilər. Eyni zamanda daimi işlək saytımızda da hər xarici fəaliyyət iştirakçısı müraciət edərək qabaqcadan yükü barədə məlumat verə bilər.**

Bunu Azərbaycan Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev Astarada jurnalistlərə açıqlamasında bildirib.

"Elektron hökumət"in, ümumiyyətlə informasiya texnologiyalarının tətbiqinin daimi axtarışda və inkişafda olan sahə olduğunu deyən komitə sədri Azərbaycanın da bu sahədən geridə qalmamağa çalışdığını bildirdi.

"Artıq İsveçin ən tanınmış bir şirkəti ilə risklərin idarə olunması elektron variantı üzrə müqaviləmiz var. Biz bu sahədə əməkdaşlığa başlamışıq. Birinci mərhələ artıq başa çatıb, ikinci mərhələyə keçid üzrəyik. Yəni bu sahədə işlər görülür," - deyə Aydın Əliyev əlavə edib.

# "Rabitə operatorları və internet provayderləri göstərdikləri xidmətlərin keyfiyyətinə görə məsuliyyət daşıyacaqlar"

**Elektron Hökumətin və elektron xidmətlərin daha populyar olması və miqyaslanmasını şərtləndirən başlıca amillərdən biri də internetə əlçatanlığın olmasıdır.**

"Azərbaycanda rabitə və informasiya texnologiyaları xidmətləri istehlakçılarının hüquqlarının qorunması tam təmin ediləcək. Rabitə operatorları və provayderlər göstərdikləri xidmətlərin keyfiyyətinə görə məsuliyyət daşıyacaqlar".

Rabitə və İnformasiya Texnologiyaları naziri Əli Abbasov jurnalistlərə bildirib ki, bu, mobil rabitə operatorları ilə yanaşı, internet provayderlərinə aid ediləcək.

"Avqustun 1-dən etibarən Mobil Nömrələrin Daşınması sistemi istifadəyə verilməliydi, lakin texniki səbəblərdən bu proses yubanıb və hər bir yubanma gününə görə hər bir operator məsuliyyət daşıyacaq. Bu, eyni zamanda internet provayderlərin şəbəkəsində portların daşınması xidmətlərinin provayderlər arasında onlayn rejimdə həyata keçirilməsinə də aid ediləcək. Bu gün artıq onlayn sistem yaradılıb və yaxın vaxtlarda müəyyən hüquqi baza qaydaları təsdiq edildikdən sonra istifadəyə veriləcək. Azərbaycanda 40-dan çox provayder var və onların istifadəçilərinin istehlakçı hüquqlarının təmin edilməsi üçün yaradılmış bu sistem vasitəsilə istifadəçilər istənilən vaxt bir provayderin şəbəkəsindən digər şəbəkəyə onlayn qeydiyyat sistemi üzərindən keçə biləcəklər",- deyə nazir qeyd edib.

hesab.az®



# "Elektron hökumət"lə bağlı yazı müsabiqəsinin 1-ci turunda onlayn səsvermədən istifadə edilmişdir.




Elektron Hökumət mövzusunda ən yaxşı analitik məqalə müsabiqəsinin 1-ci turunda Elektron Hökumət portalı vasitəsilə onlayn səsvermədən istifadə edilmişdir. Onlayn səsvermədə aktiv canlanma müşahidə olunmuşdur. Qeyd olunmalıdır ki, ölkəmizdə ilk dəfə olaraq səsverən şəxsin şəxsiyyətinin müəyyənləşdirilərək yalnız bir dəfə səsvermədə iştirak etməsini təmin edən elektron xidmət hazırlanmışdır. Səsvermənin bütün gedişatı loqlaşdırılır və fərdi məlumatlar haqqında qanunvericiliyə müvafiq olaraq qorunur.

Gələcəkdə müxtəlif tipli sorğuların keçirilməsində bu xidmətin imkanlarından istifadə olunması nəzərə alınmışdır.

# ƏMDK-nın daha bir xidməti elektronlaşdırılıb

**Müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakların satışı" xidməti elektronlaşdırılıb. "ICTnews" elektron xəbər xidmətinin məlumatına görə, Əmlak Məsələləri Dövlət Komitəsinə (ƏMDK) məxsus elektron xidmət artıq "Elektron hökumət" portalına daxil edilib.**

Bu xidmət müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakların satışının həyata keçirilməsi məqsədilə təşkil edilən hərraclarda hüquqi və fiziki şəxslərin iştirakının təmin olunması üçün elektron formada qeydə alınması, sifarişlərin verilməsi, seçdiyi əmlakın ilkin satış qiymətinin 10 faizi həcmində behin ödənilməsi ilə bağlı qaydaları müəyyən edir.

Sözügedən e-xidmət ƏMDK-nın yanında Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən həyata keçirilir.

# "ASAN xidmət" mərkəzi "Elektron hökumət" portalı vasitəsilə ilk elektron xidmətini təqdim etdi

**Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi "Elektron hökumət" portalı (www.e-gov.az) vasitəsilə "Onlayn növbə" adlı ilk elektron xidmətini təqdim edib. Bu xidmətdən istifadə etməklə vətəndaşlar əlavə vaxt itkisinə yol vermədən "ASAN xidmət" mərkəzlərində göstərilən xidmətlərdən istifadə məqsədilə onlayn növbə tuta biləcəklər.**

Onlayn növbə tutmaq üçün hər bir şəxs portalda tələb olunan məlumatları doldurmaqla (şəxsi məlumatlar, xidmətin seçilməsi, "ASAN xidmət" mərkəzinin seçilməsi, növbə tarixinin və vaxtının seçilməsi) xidmətdən rahat yararlana bilər.

Sözügedən xidmətdən faydalanmaq üçün bu linkə daxil ola bilərsiniz: https://services.e-gov.az/services/xforms-query.action?id=37250

www.e-gov.az

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq olunmuş elektron xidmərlərin portala inteqrasiyası barədə

# MƏLUMAT

*01.09.2013*

| Sıra № | DÖVLƏT QURUMUNUN ADI | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 0 | 0 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 24 | 1 | 2 | 23 | 23 |
| 3 | Ədliyyə Nazirliyi | 17 | 6 | 7 | 24 | 8 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 4 | 3 | 3 | 3 | 3 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 10 | 3 |
| 6 | İqtisadi İnkişaf Nazirliyi | 7 | 7 | 7 | 10 | 7 |
| 7 | Vergilər Nazirliyi | 57 | 4 | 9 | 46 | 46 |
| 8 | Sənaye və Energetika Nazirliyi | 9 | 6 | 6 | 7 | 6 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 12 | 4 | 7 | 12 | 12 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 12 | 12 | 16 | 25 | 12 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 17 | 17 | 22 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 6 | 5 |
| 13 | Təhsil Nazirliyi | 8 | 1 | 3 | 27 | 4 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 17 | 17 | 14 | 14 |
| 15 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 16 | 9 | 25 | 25 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 2 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 0 | 5 | 15 | 11 |
| 23 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 9 | 9 | 13 | 10 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 6 | 3 | 6 | 16 | 4 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 1 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 5 | 0 | 0 | 5 | 5 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | 1 | 2 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 25 | 4 | 5 | 21 | 21 |
| 31 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 4 | 4 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 12 | 9 | 12 | 15 | 12 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 10 | 1 | 1 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 3 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 0 | 0 | 2 | 1 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 0 | 0 | 3 | 3 |
| 38 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 39 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 40 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 2 | 2 |
| 41 | "Meliorasiya və su təsərrüfatı" ASC | 0 | 0 | 2 | 2 | 0 |
| 42 | "Azərsu" ASC | 0 | 0 | 2 | 3 | 0 |
| 43 | "Azərenerji" ASC | 0 | 0 | 2 | 3 | 0 |
| 44 | Mərkəzi Seçki Komissiyası | 0 | 0 | 6 | 4 | 0 |
| 45 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 0 | 0 | 1 | 4 | 0 |
| | **CƏMİ:** | **417** | **188** | **251** | **452** | **339** |

## Avqust 2013-cü il dövrü ərzində bütün qurumlar üzrə "Elektron hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Milli Arxiv İdarəsi | 2 | 6 |
| 2 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 1 | 1 |
| 3 | Sənaye və Energetika Nazirliyi | - | - |
| 4 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | - | - |
| 5 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | - | - |
| 6 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 1 | 1 |
| 7 | Dövlət Gömrük Komitəsi | 3 | 343 |
| 8 | Dövlət Sosial Müdafiə Fondu | 6 | 11014 |
| 9 | Dövlət Statistika Komitəsi | 3 | 24 |
| 10 | Vergilər Nazirliyi | 10 | 1359 |
| 11 | Ədliyyə Nazirliyi | 7 | 1172 |
| 12 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 5 | 154 |
| 13 | Fövqəladə Hallar Nazirliyi | 4 | 43 |
| 14 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 2 |
| 15 | Səhiyyə Nazirliyi | 12 | 615 |
| 16 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | - | - |
| 17 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | - | - |
| 18 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 6 | 157 |
| 19 | Dövlət Dəniz Administrasiyası | - | - |
| 20 | Təhsil Nazirliyi | 3 | 665 |
| 21 | Gənclər və İdman Nazirliyi | - | - |
| 22 | Əmlak Məsələləri Dövlət Komitəsi | 3 | 4440 |
| 23 | İqtisadi İnkişaf Nazirliyi | - | - |
| 24 | Kənd Təsərrüfatı Nazirliyi | - | - |
| 25 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 5 | 875 |
| 26 | Meliorasiya və su təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | - | - |
| 27 | Daxili İşlər Nazirliyi | 3 | 1525 |
| 28 | Dövlət Sərhəd Xidməti | 1 | 1 |
| 29 | Müəllif Hüquqları Agentliyi | 1 | 1 |
| 30 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 2 | 129 |
| 31 | Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti | - | - |
| 32 | "AzərEnerji" ASC | - | - |
| 33 | "AzərSu" ASC | 1 | 334 |
| 34 | Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi | 3 | 5 |
| 35 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 1 | 394 |
| 36 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 35 | 57769 |
| | **CƏMİ** | **119** | **81029** |

www.e-gov.az

# "Elektron hökumət" portalına daxil olanlar haqda növbəti statistik məlumatlar açıqlanıb

Portala daxilolmaların statistik uçotunun aparıldığı tarixdən - 2012-ci ilin dekabrından 2013-cü ilin sentyabr ayının 1-nə qədər portala daxil olanlar haqda detallı məlumatlar təqdim olunur. Qrafikdən (*şəkil 1*) də göründüyü kimi, portala ümumilikdə 325 063 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 194 885 nəfər olub. Belə ki, 194 885 nəfər ümumən 325 063 dəfə portala baxıb və 422 334 elektron xidmətə müraciət ediblər. Həmin şəxslər 1 125 877 müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 4 dəqiqə 40 saniyə olub.

Qeyd edək ki, bu rəqəmlər kifayət qədər yüksək göstəricilər hesab olunur. Həmçinin sözügedən rəqəmlər portala daxilolma səviyyəsinin, eyni zamanda elektron xidmətlərdən istifadə vəziyyətinin getdikcə yüksəlməsini təsdiqləyir.

ediblər, 81 029 xidmətə müraciət edib və portala sərf etdikləri vaxt ortalama 5 dəqiqə 52 saniyə təşkil edib. Avqust ayı ərzində portala müraciət edənlərin 51% yeni istifadəçilər, 49% isə təkrar müraciət edənlər təşkil edib. Bu rəqəmlər də kifayət qədər yaxşı hesab olunur və bütün istiqamətlərdə dinamik artım müşahidə olunmaqdadır.

Portalda işləmə müddəti artıb, portala 2013-cü ilin avqust ayı ərzində təkrar müraciət edənlərin sayı 49% təşkil edib. Ümumiyyətlə, son statistik məlumatlar bir daha sübut edir ki, hazırkı dönəmdə portalın fəaliyyətinin daha da genişləndirilməsi, o cümlədən müvafiq qurumlar tərəfindən yeni elektron xidmətlərin təqdim edilməsi üçün münbit şərait mövcuddur.

Belə ki, bütün elektron xidmətlərin "e-gov"-a inteqrasiya olunub, tam gücü ilə fəaliyyət göstərməsi üçün Portalın




ŞƏKİL 1

Ümumilikdə bu gün vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də kütlə nisbəti artmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 60.2% yeni istifadəçilər, 39.8% isə təkrar müraciət edənlər təşkil edib.

Müqayisə üçün avqust ayının statistikasına (*şəkil 2*) nəzər salsaq, bu dövrdə portala 36 210 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 22 549 nəfər olub. Həmin şəxslər 139 064 müxtəlif səhifələrə keçid

operatoru tərəfindən müvafiq texniki mühit yaradılıb və bunun üçün bütün lazımi infrastruktur, imkanlar mövcuddur.

Portala daxil olmaq üçün sadələşdirilmiş kod parol alan istifadəçilərin sayı bu gün 19 305-ə çatıb. Azərbaycan Respublikasında yaşayan və şəxsiyyət vəsiqəsinə sahib olan istənilən vətəndaş kod-parol əldə edə bilər.

Portalın "Facebook" sosial şəbəkəsində istifadəçilərinin sayı isə 73 510 nəfər təşkil edir.




ŞƏKİL 2

## 01.08.2013 – 31.08.2013-cü il dövrü ərzində "Elektron hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Telefon nömrəsi üzrə axtarış | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 54244 |
| 2 | Daşınmaz Əmlakın Dövlət Reyestrindən məlumatların verilməsi üçün müraciətin və sənədlərin qəbulu | Əmlak Məsələləri Dövlət Komitəsi | 4010 |
| 3 | Sığorta edənin uçot nömrəsinin öyrənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 3194 |
| 4 | Məcburi dövlət sosial sığotasına cəlb olunan gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığorta haqqı barədə məlumatın əldə edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 2645 |
| 5 | Pensiya kapitalı barədə məlumat | Dövlət Sosial Müdafiə Fondu | 2591 |
| 6 | Müsabiqə səsverməsi | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 1491 |
| 7 | Pensiyaçı tərəfindən məlumatların əldə edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 1293 |
| 8 | Pensiya kalkulyatoru | Dövlət Sosial Müdafiə Fondu | 1280 |
| 9 | Azərbaycan adları barədə məlumatın verilməsi | Ədliyyə Nazirliyi | 840 |
| 10 | Yol hərəkəti qaydalarının pozuntusu ilə əlaqədar tətbiq edilən cərimələr və cərimə balları barədə məlumatlar | Daxili İşlər Nazirliyi | 774 |

## 01.09.2013-cü il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 35 | 80 | 115 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.
Əlavə məlumatı **https://governmentsregistry.ehdis.az** portalından əldə etmək mümkündür.

## 01.09.2013 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 11866 | 405 | 3342 | 15613 |

© 2013 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə
Tel.: 157; Email: office@rabita.az